

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 83 (23.725)

7 may 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


*Dünyanın pandemiya böhranı ilə üz-üzə qaldığı, sosial-iqtisadi problemlər məngənəsində boğulduğu bir dövrdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın dinamikası qorunub saxlanılır, investisiya qoyuluşu, daxili sərvətlər və xammal hesabına, sahibkarlığın inkişafına dəstək nəticəsində çeşidli və keyfiyyətli istehsala nail olunur, ixrac potensialının artırılması, hərbi qüdrətin daha da gücləndirilməsi, elm, təhsil, mədəniyyət və idmanın inkişafı, ekoloji siyasətin həyata keçirilməsi sahəsində möhtəşəm uğurlar əldə edilir. Bütün bunlara isə muxtar respublikada ümummilli lider Heydər Əliyevin siyasi ideyalarının inam və qətiyyətlə davam etdirilməsi, Vətənə, yurda sonsuz məhəbbət, tükənməz sevgi, insan amilinin hər şeydən üstün tutulması, rəhbər-yurddaş həmrəyliyi sayəsində nail olunur. Elə ötən ayın ümumi mənzərəsi də bu deyilənləri təsdiq edəcək faktlarla kifayət qədər zəngindir.*

İcmal

## Naxçıvanın blokada şəraitində, dünyanın pandemiya böhranı mərhələsində sosial-iqtisadi inkişaf dinamikasını qoruyub saxlaması düzgün siyasi strategiyanın bəhrəsidir

### Ötən ayın ümumi mənzərəsi belə deməyə əsas verir



### Təbiətə doğma münasibət insan sağlamlığına, gələcəyə qayğıdır

Muxtar respublikada ekoloji mühitin qorunması insanların sağlam həyat şəraitində yaşamasına xidmət edir. Bu səbəbdən də yaşıllaşdırma tədbirləri mütəmadi olaraq davam etdirilir, yaşıllıq zolaqlarının sahəsi genişləndirilir, ətraf mühit qorunur. Naxçıvanda yaşıllaşdırma tədbirlərinin, xüsusilə də iməciliklərin keçirilməsi gözəl ənənəyə çevrilməklə həm də təbiətə, insan sağlamlığına qayğı, zəhmətsevərlik və həmrəylik nümunəsi sayılır. Bu tədbirlər kənd təsərrüfatının mühüm qolu olan meyvəçiliyin inkişafına, bununla isə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrasına da töhfə vermiş olur. Təkcə cari ilin ilk rübündə isə 115,6 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 45 min 235 ağac və gül kolu əkilmişdir. Bu ilin yaz əkini dövründə isə muxtar respublikada 231 hektardan artıq sahədə meyvə və üzüm bağları salınacaq, yaşıllaşdırma, bərpa əkinləri aparılacaq, toxmacarlıq yaradılacaq və toxumla əkin həyata keçiriləcəkdir. Əkin zamanı 120 mindən artıq müxtəlif meyvə və meşə tinglərindən, 1300 kiloqram toxumdan istifadə olunacaqdır.

Aprelin 3-də muxtar respublikada yaz mövsümünün ilk iməciliyi keçirilmiş, Uzunoba gölünün ətrafında 7 hektar ərazidə 1600 müxtəlif meyvə və üzüm tingləri əkilmiş, aqrotexniki qulluq göstərilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov iməcilikdə iştirak etmiş, meyvə tingləri əkmişdir. Həmin gün, ümumilikdə, muxtar respublikanın bütün rayonlarında 20 hektar ərazidə yeni meyvə bağı və yaşıllıq zolaqları salınmış, 12 mindən artıq ting əkilmişdir. 9 hektar ərazidə isə bərpa əkini aparılmışdır.

Aprelin 17-də muxtar respublikada keçirilən növbəti iməciliklərdə isə Naxçıvan şəhərindəki 55 hektarlıq badam bağında ağaclara aqrotexniki qulluq göstərilmişdir. Ötən illər ərzində burada 12 min 800 badam, eləcə də 535 bəzək ağacı əkilmiş, damcı üsulu ilə suvarma sistemi quraşdırılmışdır. Ali Məclisin Sədri iməcilikdə iştirak etmiş, ağaclara aqrotexniki qulluq göstərməklə, mövsüm ərzində badam bağında işlərin davam etdirilməsi barədə tapşırıq verməklə bütünlükdə muxtar respublika sakinlərinə təbiətin mühafizəsi və zənginləşdirilməsinə doğma, həssas münasibət aşılamışdır.

### İdmanın inkişafı sağlam, mübariz və əqidəli, qələbə əzmli gəncliyin yetişdirilməsi məramına xidmət edir

İdmanın inkişafına xidmət edən dövlət siyasətinin Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilməsi zəngin idman ənənələrinə məxsus diyarımızı ölkəmizin idman mərkəzlərindən birinə çevirib. Son illər muxtar respublikada idmanın maddi-texniki bazasının xeyli gücləndirilməsi gənclərin bədən tərbiyəsi və idmana olan marağını artırır, idman klublarının və federasiyaların heyəti ilbəil genişlənir. Bunun nəticəsidir ki, hazırda muxtar respublikamızda 35 mindən artıq idmançı 2213 qrupda idmanla məşğul olur. Muxtar respublikada keçirilən beynəlxalq səviyyəli idman yarışlarının və tədbirlərin sayı ildən-ilə artır. Mayın 3-də Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşəbbüsü ilə şahmat üzrə növbəti Azərbaycan çempionatının ilk dəfə olaraq ölkə paytaxtından kənarda, məhz Naxçıvanda keçirilməsi, Azərbaycanın 12 ən güclü şahmatçısının iştirak etdiyi bu zəka yarışının yüksək səviyyədə, nümunəvi təşkili muxtar respublikada şahmatın inkişafının bariz nümunəsi, federasiyanın uğurlu fəaliyyətinin göstəricisidir. Bütün bunlar, eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə qəbul olunmuş "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nda idmanın kütləviliyinə, inkişafına nail olmaq məqsədilə qarşıya qoyulan mühüm vəzifələrin icrasının bəhrələridir.

Muxtar respublikada bütün idman növləri ilə yanaşı, futbol idman növünə göstərilən diqqət və qayğı sayəsində bu sahədə də əsaslı irəliləyişlər olmuşdur. Naxçıvanda futbolun inkişafı, idman infrastrukturunun təkmilləşdirilməsi istiqamətində görülən silsilə tədbirlərin davamı olaraq aprelin 3-də Uzunoba Təlim-Məşq İdman Kompleksi istifadəyə verilmişdir. Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə çıxış edərək demişdir: ***"Muxtar respublikada gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların sağlam böyüməsi, zərərli vərdişlərdən uzaq olmaları və idmana cəlbi sahəsində ardıcıl tədbirlər görülür. Görülən işlər və yaradılan şərait artıq öz nəticəsini verir. İdman federasiyalarında yüzlərlə gənc müxtəlif idman növləri ilə məşğul olur. "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq muxtar respublikanın ümumtəhsil məktəblərində müvafiq idman klublarının yaradılması davam etdirilir. Proqrama əsasən tikilib istifadəyə verilən Uzunoba Təlim-Məşq İdman Kompleksi də gənclərin asudə vaxtlarının səmərəli keçirilməsinə hesablanıb. Bundan başqa, rayonlarda stadionların qurulması işləri davam etdirilir. Federasiyaların rayonlararası keçirdiyi yarışlarda gənclərin fəallığı, eyni zamanda muxtar respublika federasiyalarında təmsil olunan gənclərin ölkə səviyyəli və Azərbaycanın iştirak etdiyi beynəlxalq yarışlardakı nəticələri onu deməyə əsas verir ki, Naxçıvanda idmanın inkişafı lazımi səviyyədədir".***

Muxtar respublika rəhbəri təlim-məşq idman kompleksinin istifadəyə verilməsini muxtar respublikada yenilik kimi dəyərləndirmişdir. Vurğulamışdır ki, yaradılan şərait həm yay aylarında burada çimərlik idman növlərindən istifadə olunmasına, həm də ilin bütün fəsillərində idmanın müvafiq növləri ilə bağlı məşqlər keçirilməsinə imkan verəcək ki, bunlar gənclərdə idmana maraq yaradacaq, onlar asudə vaxtlarını səmərəli keçirəcək və ən əsası sağlam böyüyəcəklər. Ali Məclisin Sədri kompleksin qurulmasında əməyi olanlara təşəkkür etmişdir. Sonra kompleksə baxış olmuşdur. Ümumi sahəsi 10 min 300 kvadratmetr olan təlim-məşq idman kompleksi haqqında məlumat verilmiş, bildirilmişdir ki, buradakı stadionlar Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası, eləcə də Avropa Futbol Assosiasiyaları İttifaqının standartlarına tam cavab verir və beynəlxalq yarışlar üçün uyğundur.

Ali Məclisin Sədri kompleksdə muxtar respublika və beynəlxalq səviyyəli yarışların təşkili, müvafiq idman federasiyaları tərəfindən məşqlərin keçirilməsi, kompleksin internet saytının yaradılması və qurulanların qorunması ilə bağlı tapşırıqlar vermişdir.

### Ordubad rayonundakı kompleks quruculuq işləri muxtar respublikanın sosial-iqtisadi inkişaf strategiyasının əhatəliliyini və məqsədyönlülüyünü təsdiqləyir

Muxtar respublikamızın bütün rayon və şəhərləri, o cümlədən Ordubad rayonu da simasını dəyişmiş və müasirləşmiş, rayonda kompleks quruculuq işləri aparılmışdır.

"Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq muxtar respublikada gələcəyimiz olan uşaqların sağlamlığına hesablanmış ardıcıl tədbirlər görülür. Ordubad Rayon Uşaq Xəstəxanası da müasir tələblər səviyyəsində qurulmuş, uşaqların dünya səhiyyə sisteminin tələblərinə uyğun müayinə və müalicəsi üçün burada hərtərəfli şərait yaradılmışdır. Aprelin 9-da xəstəxana istifadəyə verilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edərək demişdir: ***"Ordubad rayonunda da uşaq xəstəxanasının yaradılmasına ehtiyac var idi. Müvafiq sərəncamdan sonra burada lazımi işlər həyata keçirilmiş və bu gün kollektivin istifadəsinə 54 adda müxtəlif təyinatlı tibbi avadanlıqlarla təmin olunmuş, stasionar və poliklinika şöbələrindən ibarət olan müasir uşaq xəstəxanası verilir. Səhiyyə müəssisəsində hərtərəfli şərait yaradılmışdır. Bu da kollektivin üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməsinə imkan verəcəkdir. Qarşıda duran əsas vəzifə rayonda bütün uşaqların qeydiyyata alınması, Dövlət proqramında nəzərdə tutulan tədbirlərin vaxtında həyata keçirilməsi və uşaqların sağlamlığının diqqətdə saxlanılmasıdır. Ona görə ki, uşaqlar gələcəyimizdir. Onların sağlam böyüməsi, yaxşı təhsil alması isə ölkənin gələcəyinə xidmət edir".*** Ali Məclisin Sədri yaradılan şəraitdən düzgün istifadə olunacağına əminliyini bildirmiş və kollektivə işlərində uğurlar arzulamışdır. Xəstəxana ilə tanışlıq zamanı məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 10 çarpayılıq səhiyyə ocağında stasionar şöbə və poliklinika bölməsi fəaliyyət göstərir, 59 nəfərdən ibarət tibbi heyət çalışır. Xəstəxanada mərkəzi oksigen sistemi və Ordubad Rayon Mərkəzi Xəstəxanasına inteqrasiya olunmuş nümunəvi tibbi informasiya sistemi yaradılmış, ümumilikdə, 54 müasir tibbi avadanlıq alınmış, "FİAT" markalı təcili tibbi yardım avtomobili verilmişdir.

Ali Məclisin Sədri təcili tibbi yardım avtomobilinin açarını təqdim etmiş, uşaqlarda tibbi müayinə və peyvəndlərin vaxtında aparılması, kadr hazırlığının diqqətdə saxlanılması barədə tapşırıqlar vermişdir.

Muxtar respublikada uğurlu təhsil siyasətinin əsasında müasir infrastrukturun təşkili dayanır. Hazırda Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseydə, Şərur rayon Çərçiboğan, Dərvişlər, Babək rayon Sirab, Araz, Ordubad rayon Əndəmic, Vələver, Pəzməri və Dırnıs məktəblərində tikinti-quruculuq işləri aparılır. Təhsil müəssisələrində sürətli internetə çıxışı olan 5700-dən artıq kompüter və 650-dən artıq elektron lövhə quraşdırılmışdır. Ötən dövrdə Heydər Əliyev adına tam orta məktəbdə STEAM Tədris Mərkəzi, 4 məktəbdənkənar təhsil müəssisəsində və 11 tam orta məktəbdə STEAM kabinələri yaradılmışdır. Hazırda 38 tam orta məktəbdə STEAM kabinələrinin yaradılması istiqamətində işlər aparılır. Belə tədbirlərin davamı olaraq aprelin 9-da müasir təhsil ocaqlarına qoşulan Ordubad şəhər 1 nömrəli tam orta məktəb istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.

Muxtar respublika rəhbərinə zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 612 şagird yerlik məktəbdə yaradılan müasir tədris şəraiti, burada yaradılan STEAM kabinəsi haqqında məlumat verilmiş, bildirilmişdir ki, STEAM kabinəsində şagirdlər hazırladıqları layihələri muxtar respublika rəhbərinə təqdim etmişlər.

Ali Məclisin Sədri hərbi hazırlıq kabinəsinə baxış zamanı gənclərlə hərbi-vətənpərvərlik işinin düzgün təşkilinin əhəmiyyətini vurğulamış, hərbi hazırlıq fənninin tədrisinin yüksək səviyyədə aparılması barədə tapşırıq vermişdir. Elektron lövhəli sinifdə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi ilə 200-dən artıq ümumtəhsil məktəbi arasında keçilən interaktiv dərs izlənilmişdir.

Ali Məclis Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq məktəbdə Ağır Atletika İdman Klubu yaradılmışdır. Ali Məclisin Sədri klubun fəaliyyəti üçün yaradılan şəraitlə tanışlıq zamanı digər məktəblərdə də idman klublarının yaradılması barədə tapşırıqlar vermiş, sonra məktəbin pedaqoji kollektivi ilə görüşmüşdür. Muxtar respublika rəhbəri kollektivi təbrik edərək demişdir: ***"Bu gün Ordubad şəhər 1 nömrəli tam***

Ardı 2-ci səhifədə

***orta məktəb müasir tələblər səviyyəsində qurularaq kollektivin istifadəsinə verilir. Əgər XX əsr texnika dövrü idisə, XXI əsr yeni texnologiya əsridir. O dövrdə məktəbdə əmək təlimi otağı yaradılırdısa, bu gün STEAM kabinəsi qurulur, laboratoriyalar istifadəyə verilir, məktəb və tədris dövrün tələbinə uyğunlaşdırılır. Elektron lövhələr, kompüter sinifləri, laboratoriyalar və kabinələrlə təmin olunmuş Ordubad şəhər 1 nömrəli tam orta məktəb də yeni texnologiyaların tədrisdə tətbiq edilməsinin göstəricisidir. Belə məktəblərin tikilməsi ölkənin vəsaiti hesabına həyata keçirilir. Məktəb kollektivi yeni texnologiyaları yaxşı mənimsəməlidir ki, uşaqlara da yaxşı öyrədə bilsinlər. Ona görə ki, gənclər ölkənin gələcəyi, qurucularıdır. Qəbul olunan Dövlət proqramları, həyata keçirilən tədbirlər onların yaxşı təhsil almalarına hesablanıb”.*** Kollektivə fədakar əməyinə görə təşəkkür etmiş, gələcək tədrisdə uğurlar arzulamışdır. Muxtar respublika rəhbəri yeni texnologiyaların öyrənilməsi, gənc müəllimlərin işləməsi üçün şəraitin yaradılması, yaradılanlardan səmərəli istifadə olunması ilə bağlı və digər tapşırıqlar vermişdir.

Aprelin 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Ordubad şəhərində qurulan futbol stadionunun layihəsinə baxmış, görülən işlərlə maraqlanmışdır. Məlumat verilmişdir ki, yeni stadionda qaçış zolaqlarının asfaltlanması, 400 yerlik oturacaqların və avtomobil dayanacağının qurulması işləri görülür. Meydançada soyunmageyinmə otaqlarının, tribunanın, işıqlandırma sisteminin yaradılması da nəzərdə tutulmuşdur. Ali Məclisin Sədri stadionun standartlara uyğun qurulması barədə tapşırıq vermişdir.

Muxtar respublikanın məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyətinin təşkili həyata keçirilən təhsil islahatlarının əsas istiqamətlərindəndir. Xüsusilə yeni innovativ dərnəklərin yaradılması uşaqların asudə vaxtlarının səmərəli təşkili və intellektual inkişafı, onların istedad və bacarıqlarının üzə çıxarılması, yaradıcılıq qabiliyyətlərinin genişləndirilməsi, milli dəyərlər zəminində tərbiyələri üçün zəruri şərait yaradır. Aprelin 9-da Ordubad rayonunda yaradılmış innovativ dərnəklərin təqdimatı olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov dərnəklərin fəaliyyəti ilə maraqlanmış, şagirdlərin əl işlərindən ibarət sərgiyə baxmışdır.

Məlumat verilmişdir ki, Ordubad rayonunda fəaliyyət göstərən 4 məktəbdənkənar təhsil müəssisəsində 1209 şagirdin təhsili ilə 59 müəllim məşğul olur. Rayonda, ümumilikdə, 37 dərnək fəaliyyət göstərir ki, onlardan 20-si yeni yaradılan innovativ dərnəkdir. Dərnəklərə 8-i sağlamlıq imkanları məhdud uşaq olmaqla, 614 şagird cəlb olunub ki, onların təlim-tərbiyəsi ilə 34 dərnək rəhbəri məşğul olur. İnnovativ dərnəklər üçün 213 yerlik 16 sinif otağı və 1 xidməti otaq ayrılmış, müasir ləvazimatlar, xammalla təchiz olunmuşdur.

Mental-aritmetik dərnəyində şagirdlər Azərbaycan və rus dillərində saymaqla və şeir qiraət etməklə hesablama aparmışlar. Robotexnika, kompüter mühəndisliyi və STEAM dərnəklərində şagirdlər hazırladıqları yükdaşıyan robot, ağıllı ev, rütubətölçən cihaz, külək elektrik stansiyasının modeli və digər layihələri təqdim etmiş və onlar haqqında məlumat vermişlər.

Ali Məclisin Sədri demişdir: ***“Məktəbdənkənar müəssisələr şagirdlərin asudə vaxtlarının təşkilində və peşə seçimlərində çox əhəmiyyətlidir. Muxtar respublikada məktəbdənkənar müəssisələrin formalaşmasına bir neçə il bundan əvvəl başlanılıb. Ordubad rayonunun məktəbdənkənar müəssisələrində də 37 dərnəkdən 20-si yeni qurulub ki, onlar da, əsasən, yeni texnologiyaları və milli dəyərləri əhatə edir. Bu dərnəklərin fəaliyyəti üçün bundan sonra da lazımi köməklik göstərilməlidir. Əvvəllər muxtar respublikada keçirilən sərgilərə yalnız evlərdə olan bir neçə çeşiddə qədim əl işləri çıxarılırdısa, son zamanlar belə sərgilərdə hazırlanan əl işlərinin çeşidləri artmışdır. Xüsusilə də sərgilərdə sağlamlıq imkanları məhdud şəxslərin əl işlərinin üstünlük təşkil etməsi yaradılan şəraitin nəticəsidir. Ona görə də milli dəyərləri əks etdirən dərnəklərin hər il muxtar respublikada sərgi-satışı, texniki dərnəklərin isə gələcəkdə təşkil olunacaq texnologiya festivalında iştirakı təmin edilməlidir. Uşaqlarda bu sahəyə böyük maraq var. Bu səbəbdən də onlar dərnəklərə daha çox cəlb edilməlidir”.***

Ali Məclisin Sədri muxtar respublikanın bütün məktəblərində STEAM kabinələrinin qurulub başa çatdırılması, müəllimlərin kurslara cəlb olunması, şagirdlərin asudə vaxtlarının təşkili üçün məktəb və məktəbdənkənar müəssisələrdə işlərin davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

### *Torpağın hər qarışının qızıl dəyərində tutulması zəhmətə bağlılıq, vətənpərvərlik örnəyidir*

Naxçıvan Muxtar Respublikasında meliorasiya və irriqasiya sistemlərinin yenidən qurulması aqrar sahənin inkişafına mühüm töhfə verir. Hər il bu istiqamətdə silsilə tədbirlər görülür, mütərəqqi suvarma şəbəkələri və nasos stansiyaları tikilir, uzun illər əkilməyən torpaq sahələri əkin dövriyyəsinə qatılır. Həyata keçirilən bu tədbirlər bol məhsul istehsalı ilə yanaşı, həm də əhalinin məşğulluğunun təmin olunmasına hesablanıb. Kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı” təsdiq edilmişdir. 2020-ci ildə meliorasiya və irriqasiya sistemlərinin yenidən qurulması diqqətdə saxlanılmış, Sədərək rayonunda işğaldan azad edilmiş 73 hektar torpaq sahəsində meliorativ tədbirlər aparılaraq əkin dövriyyəsinə daxil edilmişdir. Cari ildə də meliorasiya-irriqasiya sistemlərinin yenilənməsi diqqət mərkəzində saxlanılmış, Araz Su Anbarından qidalanan nasos stansiyasının və təzyiqli boru xəttinin, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində qapalı suvarma şəbəkəsinin, nasos stansiyasının və boru xətlərinin, kollektor-drenaj şəbəkəsinin tikintisinə başlanılmışdır. Görülən tədbirlər çərçivəsində Şahbuz rayonunun Külüs kəndində yeni nasos stansiyası tikilmiş, Şahbuzkənd, Külüs və Keçili kəndlərinin elektrik sistemləri yenilənmişdir. Aprelin 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Şahbuzkənd, Külüs və Keçili kəndlərinin elektrik sistemlərində görülən işlərlə maraqlanmışdır.

Qeyd edək ki, Külüs kəndində yeni nasos stansiyasının tikilməsi layihəsi 40 il bundan əvvəl, hələ Sovetlər Birliyi dövründə nəzərdə tutulsa da, həmin dövrdə bu ərazidə enerji təsərrüfatının normalara uyğun olmaması layihənin icrasına imkan verməmişdir. Müstəqillik illərində muxtar respublikada enerji təhlükəsizliyi istiqamətində məqsədyönlü tədbirlər görülmüş, məhz bu işlərin davamı olaraq Şahbuzkənd, Külüs və Keçili kəndlərində elektrik sistemlərinin yenilənməsi, “Şahbuz” yarımstansiyasının gücünün artırılması nasos stansiyasının tikintisinə imkan vermiş, nəticədə, yüz hektarlarla torpaq sahəsi əkin dövriyyəsinə qatılmışdır.

Muxtar respublika rəhbərinə məlumat verilmişdir ki, Külüs, Keçili, Şahbuzkənd kəndlərini və yeni tikilən nasos stansiyasını dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin etmək məqsədilə 12,2 kilometr uzunluğunda 35 kilovoltluq elektrik verilişi xətti çəkilmişdir. Bu məqsədlə 35/10 kilovatlıq “Şahbuz” yarımstansiyasında lazımi genişləndirmə işləri aparılmış, Külüs kəndi ərazisində 2500 KVA gücündə 35/10 kilovoltluq və nasos stansiyasının yaxınlığında 1600 KVA gücündə 10/6 kilovoltluq transformator yarımstansiyası quraşdırılmışdır. Görülən işlər adıçəkilən yaşayış məntəqələrində elektrik enerjisinin daha keyfiyyətlə ötürülməsinə imkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov yarımstansiyanın qurulmasında əməyi olanlara təşəkkür etmişdir.

Vaxtilə torpaq sürüşməsi zamanı Keçili kəndindən köçənlər üçün evlər tikiləndə qaynaq aparatını işlətmək üçün elektrik enerjisinin gücünün çatmadığını xatırladan Ali Məclisin Sədri artıq bu gün həmin problemlərin aradan qaldırıldığını, müasir xətlərin qurulub istifadəyə verildiyini, elektrik təminatının yaxşılaşdırılmasının isə burada insanların rahat yaşayışına xidmət etdiyini bildirmişdir.

Aprelin 22-də Şahbuz rayonunun Külüs kəndində Şahbuzçaydan qidalanaraq suyu 510 metr yüksəklikdə yerləşən sahəyə vuran yeni nasos stansiyası istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov stansiyanın istifadəyə verilməsi münasibətilə keçirilən tədbirdə iştirak etmişdir.

Ali Məclisin Sədri bildirmişdir ki, 40 il əvvəl cəhd göstərilsə də, buna nail olmaq mümkün olmamış, yeni elektrik xəttinin çəkilməsi, yarımstansiyanın qurulmasından sonra artıq bu nasos stansiyasının işləməsi reallaşmışdır. Stansiya vasitəsilə 3 kəndin – Şahbuz rayonunun Külüs, Mahmudoba və Nursu kəndlərinə aid 340 hektara yaxın torpaq sahəsi suvarılan torpaqlar sırasına daxil olacaq, bununla da məhsuldarlıq xeyli artacaqdır ki, bu da nasos stansiyasının əhəmiyyətinin nə böyük olduğunu bir daha təsdiqləyir.

Ali Məclisin Sədri nasos stansiyasının qurulmasında əməyi olanlara təşəkkür etmiş və stansiyanı işə salmışdır. Həmin gün Ali Məclisin Sədri əkin dövriyyəsinə qatılmış 340 hektar torpaq sahəsinə baxmışdır. Məlumat verilmişdir ki, 340 hektar torpaq sahəsinin 211 hektarı bələdiyyə, 129 hektarı isə xüsusi mülkiyyətdə olan torpaq sahələridir. Bunun 288 hektarı Külüs, 37 hektarı Mahmudoba, 15 hektarı isə Nursu bələdiyyələrinə daxildir. Ərazi Mahmudoba bələdiyyəsindən 1850 metr hündürlükdən başlayaraq Külüs və Nursu bələdiyyələrinə doğru 2100 metr hündürlüyədək 6 kilometr boyunca davam edir. Bu ilin məhsulu üçün ötən ilin payızında 274 hektar sahədə arpa, buğda və xaşa əkilmişdir ki, onun 121 hektarı xüsusi, 153 hektarı bələdiyyə mülkiyyətində olan torpaqlardır. Həmçinin 45 hektar sahədə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti əkin aparmışdır. Əkin dövriyyəsinə qatılan torpaq sahələrinə sakinlərin və kənd təsərrüfatı texnikalarının rahat gediş-gəlişinin təmin olunması məqsədilə 7,6 kilometrlik yeni yol çəkilmişdir.

Ali Məclisin Sədri yeni əkin dövriyyəsinə qatılacaq 340 hektar sahədə qurulacaq qapalı suvarma şəbəkəsinin layihəsinə baxmışdır. Məlumat verilmişdir ki, qapalı suvarma şəbəkəsinin qurulması zamanı, ümumilikdə, 10 min 596 metr boru xətti çəkiləcəkdir.

Sonra kənd sakinləri ilə görüş olmuş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov sakinləri təbrik edərək vurğulamışdır ki, qısa müddətdə burada böyük işlər görülüb, bunun üçün muxtar respublikanın büdcəsindən 1 milyon manata yaxın vəsait sərf olunub. Torpaq mülkiyyətçilərinə, bələdiyyə torpaqlarını icarəyə götürənlərə hərtərəfli dövlət dəstəyi göstərilib. Muxtar respublika rəhbəri tövsiyə etmişdir ki, bu qayğının müqabilində torpaqlardan səmərəli istifadə olunmalı, bol məhsul əldə edilməlidir.

Şahbuz rayonunda görülən irimiqyaslı tədbirlər əkinçilərin öz həyat şəraitini yaxşılaşdırmağa, həm də ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasına hesablanmış tədbirlər kimi ötən ayın yaddaqalan hadisələrindən oldu.

*Təkcə ötən ayın ümumi mənzərəsi Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi tərəqqinin uğurla davam etdirildiyini bir daha təsdiq edir. Muxtar respublikada ulu öndər Heydər Əliyev siyasi xəttinin sədaqət və qətiyyətlə davam etdirilməsi, ölkə başçısının müəyyənləşdirdiyi siyasətin dəqiqliklə həyata keçirilməsi, sosial-iqtisadi inkişafla bağlı qəbul edilmiş Dövlət proqramlarının uğurlu icrası, modern islahatların reallaşdırılması yurda, yurddaşa məhəbbət, dövlətə, dövlətçiliyə sədaqət nümunəsi, gələcək uğurlara aparan yoldur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov siyasi yolunun Heydər Əliyev yolu, Heydər Əliyev siyasi xətti olduğunu Naxçıvanın hər addımdakı inkişafı ilə bir daha əməli olaraq sübut etməkdədir:* ***“Bütün qüvvə və bacarığımı Naxçıvanın çiçəklənməsinə sərf edəcəyəm, ordu quruculuğu, təhsil, intellektli və vətənpərvər gəncliyin yetişdirilməsi fəaliyyətimdə üstün istiqamət olacaq”.***

**✍ Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## “Şahin Şah” Məhdud Məsuliyyətli Cəmiyyəti istehsal sahəsini genişləndirir





Muxtar respublikadakı əlverişli biznes və investisiya mühiti digər sənaye sahələri ilə yanaşı, mebel sənayesinin inkişafı üçün də geniş imkanlar yaradır, yeni mebel istehsalı müəssisələri açılır. Belə müəssisələrdən biri “Şahin Şah” Məhdud Məsuliyyətli Cəmiyyətidir.

Muxtar respublikanın müasir mebel istehsalçılarından biri olan “Şahin Şah” MMC 1998-ci ildən fəaliyyətə başlayıb. Əsas fəaliyyəti mebel istehsalı və satışı olan müəssisə xarici bazarlarda bir marka kimi tanınmaq üçün uğurla irəliləyir, daim müştərilərinə keyfiyyətli məhsullar təqdim etməyə çalışır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu il fevralın 27-də sahibkarlarla keçirdiyi görüşdə istehsal sahəsinin genişləndirilməsi və avadanlıqların alınması məqsədilə “Şahin Şah” güzəştli kreditlə təmin olunub.

Müəssisədə yüksəkkeyfiyyətli məhsul istehsal etmək üçün “Şahin şah” MMC-yə ümumi dəyəri 136 min manat olan Almaniya istehsalı EDGETEQ S-380 PVC əsaslı kənar bantvurma avadanlığının alınması məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondu tərəfindən 80 min manat məbləğində dövlət maliyyə dəstəyi ayrılıb. Gündəlik istehsal gücü uzunluğu 1350 metr bant olan müasirtipli bu avadanlıqlar vasitəsilə yüksəkkeyfiyyətli məhsul istehsalına nail olunacaq. Bu cür müəssisələrin yaradılması və fəaliyyətlərini genişləndirməsi birbaşa insanların rifah halının yüksəlməsinə, yaşayış səviyyəsinin daha da yaxşılaşmasına səbəb olur.

“Şahin Şah” MMC tərəfindən mebel istehsalı sahəsinin genişləndirilməsi həm də onu göstərir ki, muxtar respublikada sənaye potensialının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər uğurla davam edir.

Muxtar respublikamızda ümumi daxili məhsul istehsalında özəl sektorun xüsusi çəkisi böyükdür. Bu mənada, iqtisadiyyatın şaxələndirilməsinin, yerli məhsulların istehsalının artırılmasının, idxaldan asılılığın azaldılmasının və digər strateji vəzifələrin həllinin, xüsusilə aktual olduğu indiki dövrdə özəl sektorun rolu mühüm əhəmiyyət kəsb edir. Özəl sektorun iştirakçıları isə sahibkarlardır. Sahibkarlığın inkişafı həm də milli şüurun formalaşmasında mühüm rol oynayır. Reallıq ondan ibarətdir ki, Ali Məclisin Sədri sahibkarların iqtisadiyyatda rolunu və yerini düzgün qiymətləndirir. Odur ki, son illərdə muxtar respublikada yeni iqtisadi siyasətin reallaşması istiqamətində həyata keçirilən tədbirlərin bir hissəsi sahibkarlıq sahəsini əhatə edib. Yoxlamaların minimuma endirilməsi, lisenziyalaşdırma sisteminin təkmilləşdirilməsi, satınalmalarda yerli sahibkarlara üstünlük verilməsi, ixracın və investisiyaların təşviqi mexanizmlərinin tətbiqi sahibkarlıq fəaliyyətinə diqqətin davamlı olmasını göstərməklə yanaşı, özəl bölmənin inkişafı üçün də xüsusi əhəmiyyət daşıyır.

**Çinarə BALAYEVA**
***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin əməkdaşı***

Təhsil millətin gələcəyidir

## Yaradılan imkanlar nəticəsində muxtar respublikada yüksək nüfuz qazanan Naxçıvan Qızlar Liseyi



*Hacı Zeynalabdin Tağıyev deyirdi: "Bir kişiyə təhsil verməklə savadlı bir insan qazanarsınız. Bir qadına təhsil verməklə isə savadlı bir ailə və cəmiyyət". Bu nöqteyi-nəzərdən yanaşsaq, qadının təhsil alması savadlı və sağlam gələcəyin qurulması üçün daha vacibdir. Gələcəyin xanımları – böyüməkdə olan gənc qızların hər biri gələcəyin anası, gələcəyin övlad tərbiyədicisi və ailə başçılarıdır. Bugünkü gənc qızlar savadlı və vətənpərvər olsalar, gələcəkdə övladlarını da o ruhda tərbiyə edəcəklər.*

Tarixən Naxçıvan ziyalıları qızların təhsilinin olmasına məxsusi səy göstərmiş, hələ XIX əsrin sonlarında Naxçıvan ictimai-mədəni mühitində qadınların təhsili məsələləri qabaqcıl ziyalılar arasında geniş yayılmışdır. Eynəli bəy Sultanov, Məhəmməd Tağı Sidqi, Cəlil Məmmədquluzadə kimi mütərəqqi görüşlü ziyalılar qadınların maariflənməsi uğrunda müəyyən əməli fəaliyyət nümunəsi göstərə bilmişlər. Bu, bir həqiqətdir ki, Azərbaycanda qızlar üçün məktəb açılmasının ilk təşəbbüskarı görkəmli maarifçi Cəlil Məmmədquluzadə olub. O, 1893-cü ildə Nehrəm məktəbində qızlar sinfi açıb. Naxçıvanda ilk dünyəvi qadın məktəbi isə Məhəmməd Tağı Sidqi tərəfindən 1896-cı ildə təsis olunub. Bu cəsarətli işin davamı olaraq qızların təhsil almalarına hər zaman xüsusi diqqət yetirilən muxtar respublikada 1992-ci ildə Xanım Qızlar Pansionu yaradılıb. 2004-cü ildən "Naxçıvan Qızlar Liseyi" adı ilə fəaliyyətini davam etdirən lisey



Azərbaycanda yeganə qızlar məktəbidir. Naxçıvan Qızlar Liseyi nümunəvi təlim-tədris prosesi ilə seçilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində 2011-ci ildə yenidən əsaslı təmir olunaraq müasir infrastrukturla zənginləşdirilən Naxçıvan Qızlar Liseyinin fəaliyyəti üçün zəruri tədris şəraiti yaradılıb, təhsil ocağı müasir avadanlıqlarla təmin olunub. Binada yerləşən kimya, biologiya və fizika laboratoriyaları tədris avadanlıqları ilə zəngindir. Bu laboratoriyalarda müvafiq fənlər üzrə dərslərin tədrisi yüksək səviyyədə aparılır. İlk tibbi yardım kabinəsi lazımi avadanlıqlar və məlumat stendləri ilə təchiz olunub ki, burada şagirdlərə ilk tibbi yardımın sirləri öyrədilir.

Naxçıvan Qızlar Liseyinin direktoru Aidə Allahverdiyeva deyir ki, liseyin əsas məqsədi burada təhsil alan hər bir şagirdi savadlı, vətənpərvər, dünyagörüşlü, Azərbaycan qadınının yüksək mənəvi keyfiyyətlərini özündə daşıyan, milli-mənəvi dəyərlərimizə sadiq və milli adət-ənənələrimizi yaşadan, tanıdan xanım kimi formalaşdırmaqdır. Göstərilən qayğının nəticəsidir ki, liseyimizin uğurları ildən-ilə artır. 2019-2020-ci tədris ilində bu təhsil ocağını 49 məzun bitirmiş, bunlardan 47-si ali, 2-si isə orta ixtisas məktəblərinə qəbul olmuşlar. Məzunlardan 1-i "Qızıl", 2-si "Gümüş" nişana, 1-i isə Fərqlənmə attestatına layiq görülmüşdür. Şagirdlərimizdən 14-ü 500-700 intervalında bal toplamışdır. Bu tədris ilində isə liseyin XI sinfində 41 şagird təhsil alır. Onların da yaxşı nəticə göstərmələri üçün kollektivimiz səylə çalışır.

Liseyin direktoru deyir ki, ən böyük uğurlarımızdan biri də müəllimimiz Gülmirə Əsgərovanın Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 5 oktyabr tarixli Sərəncamı ilə təhsil sahəsində səmərəli fəaliyyətinə görə "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adı ilə təltif olunmasıdır. Şagirdlərimizin nailiyyətləri isə bizi daha çox sevindirir. Bu il liseyin şagirdlərindən 2-si muxtar respublika fənn olimpiadalarında qalib olmuş, 4-ü isə respublika fənn olimpiadalarının final mərhələsində iştirak etmək hüququ qazanmışdır. 2020-2021-ci tədris ilində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və AMEA Naxçıvan Bölməsinin birgə təşkilatçılığı ilə davam etdirilən "Sabahın tədqiqatçıları" layihəsində liseyimizin X sinif şagirdi Nuray Məmmədovanın "Naxçıvan Muxtar Respublikası ərazisində bəzi mineral suların Kurlov formulunun təyini" adlı layihəsi "Rusiya Pedaqoqları" Ümumrusiya Təhsil Portalı tərəfindən keçirilən "Uşaqların və gənclərin yaradıcılıq və intellekt" beynəlxalq müsabiqəsində I dərəcəli diploma layiq görülüb. Nuray Məmmədovanın "Muxtar respublikanın yeraltı su ehtiyatları" və liseyin XI sinif şagirdləri Səma Abdullayeva və Bəhriyyə Mustafayevanın "Naxçıvan daşduzundan tibbi natrium xloridin alınması" adlı məqalələri isə Moskvada "Rusiya Federasiyası Pedaqoji Layihə Akademiyası"nın təşkil etdiyi "Mənim elmdə addımım" adlı şagird və tələbələr üçün ümumrusiya distant konfransında sertifikata layiq görülüb.

Naxçıvan Qızlar Liseyinin dərs hissə müdiri Fərqanə Həsənova isə liseydə 381 şagirdin təlim-tərbiyəsi ilə 61 müəllim və tərbiyəçinin məşğul olduğunu bildirir. Fərqanə müəllimə deyir ki, bütün ümumtəhsil məktəbləri kimi, Naxçıvan Qızlar Liseyində də təlim-tərbiyənin düzgün qurulmasına xüsusi diqqət yetirilir. Dərsdənkənar məşğələlərin hesabına mənəviyyat dərsi, şahmat, Naxçıvan tarixi tədris edilir. Milli dəyərlərimizin qorunub saxlanılması, onların gənc nəslə aşılanması liseyimizin əsas fəaliyyət nöqtələrindən biridir. Həmçinin liseydə vaxtaşırı şagirdlərin mu-



zeylərə ekskursiyası, müxtəlif müsabiqələr, əl işlərindən ibarət sərgilər təşkil olunur, muxtar respublika üzrə təşkil edilən yaradıcılıq sərgilərində şagirdlərimiz fəal iştirak edirlər. Bundan başqa, liseydə şagirdlərin öz bacarıqlarını inkişaf etdirmələri üçün xalçaçılıq, kulinariya, tikiş-toxuculuq dərnəkləri də yaradılıb. Dərs saatları bitdikdən sonra elektron lövhələrdə tarixi adət-ənənələrimizi özündə yaşadan Azərbaycan filmləri şagirdlərə nümayiş olunur ki, bu da onların asudə vaxtlarını səmərəli keçirmələrinə imkan verir.

Liseyin XI sinif şagirdi Bəhriyyə Mustafayeva: "Mən 2015-ci ildə liseyin V sinfinə qəbul olunmuşam. Mən və mənim kimi burada təhsil alan qızlar elm, təhsil almaqla yanaşı, həm də əsl xanım kimi formalaşırıq. Burada isti yemək və çayla təmin olunuruq. Günün ikinci yarısında tərbiyəçi müəllimlərin nəzarəti ilə keçirilən məşğələlərdə bizə növbəti günün dərslərinin hazırlanmasında köməklik göstərilir. Burada aldığım yüksək səviyyəli təhsilin nəticəsidir ki, test sınaq imtahanlarında 600-700 intervalında bal toplayıram. Dərslərimi yaxşı oxuyuram. Keçirilən müxtəlif müsabiqələrdə – həm olimpiadalarda, həm də "Sabahın tədqiqatçıları" layihəsində uğurla iştirak edir, yüksək nəticə göstərirəm. IV ixtisas qrupu üzrə ali məktəblərə qəbul imtahanında iştirak edəcəyəm. Hədəfim 650-dən yuxarı bal toplamaq və həkim olmaq arzuma çatmaqdır. Bu yolda səylə çalışıram və məni bu peşəyə həvəsləndirən müəllimlərimə minnətdaram. Çalışacağam ki, liseyi xüsusi nailiyyətlərlə başa vurub onların etimadını doğruldum".

Liseyin uğurlarının ilbəil artmasının nəticəsidir ki, muxtar respublikada bu təhsil ocağı yüksək nüfuz qazanmışdır. Hər il liseyə müraciət edənlərin sayı əvvəlki illərə nisbətən daha da artmaqdadır.

Müasir tədris şəraiti ilə təmin olunmuş liseyə muxtar respublikanın müxtəlif rayon və kəndlərindən şagirdlər oxumaq üçün müraciət edirlər. Liseydə təlim ümumi orta və tam orta təhsil pillələrində keçirilir. Ümumtəhsil məktəbinin ibtidai təhsil pilləsini yaxşı və əla qiymətlərlə başa vuran qızların liseyə qəbulu hər tədris ilinin sonuna yaxın Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən seçmə üsulla, imtahan yolu ilə aparılır.

Onu da qeyd edək ki, 2021-2022-ci tədris ili üzrə ümumtəhsil məktəblərinin V sinfində təhsil alacaq qız şagirdlərin liseyə 1 aprel 2021-ci il tarixdən başlanan sənəd qəbulu mayın 25-dək davam edəcəkdir. İyunun 11-də test formatında müsabiqə yolu ilə Azərbaycan dili, riyaziyyat və ingilis dili fənləri üzrə keçiriləcək imtahanda muxtar respublika üzrə ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul olunacaqdır.

*Müsabiqədə iştirak etmək üçün səylə hazırlaşan hər bir şagirdə uğurlar arzulayırıq!*

**Ülviyyə HACIYEVA**



*AMEA Naxçıvan Bölməsində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev və tarix elmləri doktoru Abbas Seyidovun həmmüəllifliyi ilə nəşr olunan "Qədim Culfa" kitabının təqdimatı keçirilib.*

## "Qədim Culfa" kitabının təqdimatı olub

Tədbiri giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq muxtar respublikada elm adamlarına göstərilən dövlət qayğısından bəhs edib. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun dəstəyi ilə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində işıq üzü görən kitab məhz bu qayğının nəticəsidir.



Akademik söyləyib ki, "Qədim Culfa" kitabı uzunmüddətli tədqiqatların bəhrəsidir. Əsər həm elmi əhəmiyyəti, həm də zövqlü tərtib xüsusiyyətlərinə görə fərqlənir. Kitabda verilən rəngli fotoşəkil və qrafik təsvirlər elmi faktların oxuculara daha anlaşıqlı olması üçün xüsusilə faydalıdır.

Vurğulanıb ki, tanınmış arxeoloq Vəli Baxşəliyev Naxçıvan ərazisində aparılan beynəlxalq və respublika əhəmiyyətli ekspedisiyaların əsas icraçısı olmuş, arxeologiyamızın yeni elmi faktlarla zənginləşdirilməsində misilsiz xidmətlər göstərmişdir. Təcrübəli alimin aşkar etdiyi elmi yeniliklər sayəsində ədəbiyyatlarda mövcud olan bir sıra faktların, əslində, daha da qədim dövrlərə məxsus olması təsdiqlənmişdir. Vəli Baxşəliyev Naxçıvan ərazisində ən qədim insanların yüz min illər əvvəl yaşadığını, Oğlanqala yaşayış yerinin tarixən Urartu dövlətinin tərkibində olmadığını, əksinə, bu dövlətə qarşı fəal mübarizə apardığını sübuta yetirmişdir. Dünyada mədən üsulu ilə duz çıxarılan ən qədim abidənin Naxçıvanda mövcudluğu, I Kültəpə abidəsinin qədim Neolit dövrü abidəsi olması və başqa mühüm əhəmiyyətə malik tarixi faktların aşkara çıxarılması, beynəlxalq elmi ictimaiyyətə çatdırılması məhz professor Vəli Baxşəliyevin yorulmaz fəaliyyətinin nəticəsidir.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Etnoqrafiya şöbəsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova "Azərbaycan arxeologiya elminə dəyərli töhfə" mövzusunda məruzə edib. Məruzədə bildirilib ki, "Qədim Culfa" kitabı mündəricat, "Ön söz", üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Kitabın ön səhifələrində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 11 fevral tarixli "Culfa rayonundakı "Əlincə qala" tarixi abidəsinin bərpa edilməsi haqqında" və 7 oktyabr 2015-ci il tarixli "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" sərəncamlarının mətnləri verilmişdir.

Yeni nəşrdə rayondakı abidələrin ötən əsrdən başlayan arxeoloji öyrənilmə tarixi haqqında məlumat verilmiş, tədqiqatlardan əldə edilən elmi nailiyyətlər ümumiləşdirilmiş, mühüm faktlar əks olunmuşdur.

Təqdimat mərasimində bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli və institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Toğrul Xəlilov çıxış edərək kitabın Azərbaycan və dünya arxeologiya elmi üçün əhəmiyyətindən bəhs ediblər.

Sonda çıxış edən müəllif Vəli Baxşəliyev alimlərə göstərilən qayğıya və kitabın nəşrinə olunan dəstəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib. Qeyd edib ki, yaradılan hərtərəfli şərait muxtar respublika alimlərini gələcəkdə də elmə daha sədaqətlə xidmət etməyə sövq edir.

**AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti**

## Elektron kitabxana istifadəyə verilib



"Naxçıvan" Universitetində keçirilən təqdimat mərasimində çıxış edən rektor, dosent Nurlana Əliyeva bildirib ki, ali təhsil ocağının Elmi Kitabxanası 1999-cu ildən fəaliyyətə başlayıb. Bu kitabxana oxuculara çap əsərlərindən və digər informasiya daşıyıcılarından səmərəli istifadə etmək məqsədilə xidmət göstərir. Hər cür texniki avadanlıqlarla təchiz edilmiş kitabxanada müxtəlif elm sahələri üzrə qruplaşdırılmış 9 fond və 9 oxu zalı, şöbələrin hər birində yerləşdirilmiş kompüter və surətçıxarma aparatları və 1 idarəedici serverlə təmin olunmuş 18 yerlik elektron resurslar və konfrans zalları var.

Rektor bildirib ki, elektron kitabxananın fəaliyyətə başlaması elmi fəaliyyətlə məşğul olan hər kəsin işini daha da asanlaşdıracaq. Bu kitabxananın əsas məqsədi mərkəzləşdirilmiş kitabxana və informasiya bazasının və təsnifatının formalaşdırılması, oxucunun geniş elektron kitab bazasına giriş imkanı yaratmaq daha operativ istifadəni təşkil etməkdir.

Sonra universitetin İKT şöbəsinin əməkdaşı Şəfiqə İmanova elektron kitabxana haqqında geniş məlumat vermişdir.

"Naxçıvan" Universiteti Elmi Kitabxanasının müdiri Zamin Babazadə çıxışında deyib ki, elmi kitabxananın fondunda müxtəlif illərin nəşr kolleksiyaları, görkəmli şəxsiyyətlərin avtoqrafları ilə yeganə nüsxələri qalmış çap əsərləri, regional əhəmiyyətli yerli nəşrlər külliyatı, etnik, ölkəşünaslıq, fərdi və xüsusi kolleksiyalar əks olunub. Burada 4466 adda, 13841 sayda kitab, çoxlu lüğət, qəzet, jurnal mövcuddur.

Sonda elektron kitabxananın yaradılmasında əməyi olan əməkdaşlara təşəkkürnamə verilib.

**"Naxçıvan" Universitetinin mətbuat xidməti**

## May ayı üzrə pensiyaların maliyyələşdirilməsi başa çatdırılmışdır

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu hər ay olduğu kimi, may ayında da bütün növ əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırmışdır. Təyin olunan əmək pensiyalarının ödənişi plastik kartlar və poçt bölmələri vasitəsilə həyata keçirilmişdir. Həmçinin əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də vaxtında ödənilməsi, həmin şəxslərin şəxsi hesablarına və ya poçt ünvanlarına vəsaitin köçürülməsi üçün müvafiq işlər davam etdirilir. Qeyd edək ki, muxtar respublikada iqtisadiyyatın davamlı inkişafı, yeni iş yerlərinin yaradılması, həmçinin sığorta-pensiya sisteminin düzgün qurulması nəticəsində fondun gəlirləri artmış, pensiya və məcburi dövlət sosial sığorta haqları hesabına ödəmələrin vaxtlı-vaxtında maliyyələşdirilməsinə əlverişli şərait yaranmışdır.

Muxtar respublikada pensiyaların mütərəqqi üsullarla ödənilməsi sahəsində mühüm işlər görülmüş, əmək pensiyaçılarının plastik kartlar vasitəsilə pensiyalarını istənilən vaxt rahat şəkildə əldə etməsi təmin edilmişdir. Eyni zamanda kənd yerlərində yaşayan pensiyaçıların rayon mərkəzinə getmədən pensiyalarını əldə etməsi üçün də müvafiq tədbirlər görülmüş, onların istəkləri nəzərə alınmaqla kənd yerlərində pensiyaların poçt bölmələri vasitəsilə ödənilməsi təşkil olunmuşdur. Bütün bunlar muxtar respublikada pensiyaçılara göstərilən xidmət səviyyəsinin daha da yüksəlməsi istiqamətində atılmış mühüm addımlardan biridir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

*Yurdumuzun nemətləri*

# Yaz aylarının can dərmanı göbələklər

***Muxtar respublikamızın rəngarəng iqlim şəraiti, yabanı və mədəni bitki florasının zənginliyi burada müxtəlif qruplara daxil olan göbələk aləminin də formalaşmasına səbəb olub. Göbələklərin əmələgəlmə vaxtı, inkişaf müddəti və sonu hər növün bioloji xüsusiyyətlərindən, mühitin iqlim şəraitindən, xüsusən torpaq və havanın rütubətindən asılıdır.***

Naxçıvanda yeməli göbələklər, demək olar ki, mart-oktyabr aylarında, müəyyən fasilələrlə üzə çıxır. Burada göbələyin müxtəlif növləri əmələ gəlir ki, onlardan da ən geniş yayılmışı papaqlı göbələk və tryufel göbələyidir. Tərkibi çox faydalı elementlərlə, o cümlədən sink, amin turşuları, zülallar və vitaminlərlə zəngin olan tryufel bitkisi, el dili ilə desək, “dombalan göbələyi” dünyada çox az bölgələrdə yetişir. Bu nadir bölgələr sırasında Naxçıvan ərazisi də var. Yaz yağışlarının ardından çıxan bitki əllə yığılır. Bitkinin yığımı dekabr ayının sonlarından başlayaraq yaz aylarına qədər davam edir. Şəkər və qan-damar xəstəliklərinin dərmanı hesab edilən bitkinin yığımı o qədər də asan deyil. Elə bu səbəbdən tryufelin qiyməti də yüksəkdir. Hətta onun qiymətinin quzu ətindən baha olduğunu da deyirlər. Göbələkdən çox kartofa bənzəyən bu bitkidən müxtəlif təamlar hazırlanır. Tryufel daha çox İspaniya, İtaliya və Fransada məşhurdur. XV əsrdə dombalanın rahat tapılıb yığılması üçün müxtəlif heyvanlar da əhliləşdirilmişdir.





Papaqlı göbələk də, öz növbəsində, dağ və çəmən göbələyi olmaqla, iki yerə ayrılır. Onların məhsuldarlığı müəyyən illərdə bol olduğu halda, növbəti ildə nisbətən azalma ilə müşahidə edilə bilir. Papaqlı göbələklərin inkişafı, əsasən, mart ayının axırlarından və aprel ayının əvvəllərindən başlayaraq oktyabr ayına qədər davam edir. Diyarımızın əsrarəngiz təbiətinin bitirdiyi bütün məhsullar kimi Naxçıvan göbələyi də adla tanınır.

Yaz fəsli gələn kimi böyüklərimizin köməyi ilə tanıdığımız göbələk növlərini xüsusi həvəslə toplayardıq uşaqlığımızda. Uzaqdan hər ağartının arxasınca həvəslə qaçıb sevincimizi böyüklərimizlə paylaşardıq. Topladığımız göbələklərdən uzaqda yaşayan yaxınlarımıza da pay göndərərdik.

Hər il yaz açılan kimi qonşuların yığılıb müxtəlif göyərtilər, göbələk toplamaq üçün üz tutduğu yerlərə anamla birlikdə gedən Məleykə xalanın qonağı oldum. Göbələkdən hazırlanan təamlar haqqında məlumat almaq istədim. Məleykə xala: – Qızım, belə deməklə olmaz, gəl birlikdə hazırlayaq, – deyib soyuducudan göbələyi çıxarır. Onları qaba yığıb yaxşıca yuyur. Daha sonra çox da böyük olmayacaq şəkildə doğrayır, əvvəlcədən qaynamağa qoyulmuş suya göbələyin qaralmaması üçün bir az limon sıxır. Göbələkləri suya əlavə edib, duzunu vurduqdan sonra yaxşıca qaynadır. Məleykə xala deyir ki, bu zaman tez-tez baxmaq lazımdır ki, göbələk çox əzilməsin. Eyni vaxtda o, kənarda göbələyin miqdarına uyğun götürdüyümüz soğanı doğrayır. Soğanı yağda qovurduqdan sonra bişən göbələyi süzgəcdən süzüb, qızaran soğana əlavə edir, birlikdə qovururuq. Daha sonra yumurta vururuq və bununla da, yeməyimiz hazırdır. Göbələk qovurmasının müxtəlif variantlarda hazırlayanlar da var. Bəziləri yumurta əvəzinə kartof da qızardırlar. Amma hər halda göbələk süfrəyə sarımsaqlı qatıqla gətiriləndə əvəzsiz tam verir.

Məleykə xala deyir ki, göbələkdən müxtəlif salatlar da hazırlanır. Bu da təkcə bizim yox, demək olar ki, dünya mətbəxinin əvəzedilməz təamlarından sayılır. Onu da əlavə edir ki, göbələyin insan orqanizmi üçün çox faydası olsa da, zəhərlənməyə də səbəb ola bilər. Göbələkdən hazırlanan xörək və salatlar nə qədər ləziz olsa da, onu çox saxlamaq olmaz. Göbələk seçərkən də diqqətli olmaq lazımdır.

Məleykə xala ilə həmsöhbət olduqdan sonra infeksionistlərdən aldığımız məlumatı da oxucularımıza çatdırırıq. Onlar bildirirlər ki, göbələyi toplayarkən mütləq diqqətli olmaq lazımdır ki, zəhərli göbələyi ayırd edə biləsən. Lakin yeməli göbələklər də, bəzən zəhərlənmə verə bilirlər, bu da göbələyin yararlılıq müddəti ötdükdə, onun tərkibində orqanizm üçün təhlükəli olan zərərli maddələr əmələ gəlməsi nəticəsində baş verir.

Belə göbələklərdən istifadə nəticəsində baş verən zəhərlənməyə qarşı 9 saat ərzində tədbir görülmədikdə bu, xəstənin ölümü ilə nəticələnə bilər. Meyvə və tərəvəz məhsullarından zəhərlənmə hallarında, hətta 24 saatdan sonra həkimə müraciət etdikdə xəstəni xilas etmək mümkün olur. Ancaq göbələkdən zəhərlənmə 9 saatdan gec aşkarlandıqda, zərərli maddələr, yəni zəhərli göbələklərin toksinləri qana keçir və xəstəni həyata qaytarmaq müşkülə çevrilir. Göbələkdən zəhərlənmə zamanı xəstədə, əsasən, mədə bulanması, qarın nahiyəsində ağrılar, tərləmə, göz bəbəklərində qızartılar, göz yaşı ifrazında çoxalma, görmədə pozğunluq və digər belə simptomlar müşahidə olunur. Bəzi hallarda xəstənin hərarəti də yüksəlir. Zəhərlənmə gec aşkarlandıqda isə ağır formada qıcolma, huşun itməsi, ürək-damar sisteminin pozulması və arterial təzyiqin düşməsi baş verir. Zəhərli göbələklərin bir hissəsi hemodializ əmələ gətirir. Yəni zəhərlənmə zamanı qanın tərkibini dəyişir. Bu növ zəhərlənmələrdə xəstələrin 20 faizi ölüm təhlükəsi ilə üzləşir. Buna görə də göbələkdən istifadə edərkən mütləq diqqətli olmaq lazımdır.

Qədim və zəngin tarixə malik olan mətbəximiz milli mədəniyyətimizin mühüm tərkib hissəsidir. Mətbəximizə xas olan yeməklərimizin milliliyini qorumaq, onları dünyaya çatdırmaq üçün muxtar respublikamıza səfər edən turistlərin də rolu danılmazdır. Buna görə də göbələk və bu kimi təbii resurslarımızın zənginliyini, mətbəximizin qədimliyini, milliliyini isbat edən kulinariya nümunələrimizi təbliğ etmək böyük əhəmiyyət daşıyır. Çalışaq, bu dəyərlərimizi qoruyaq, təbii nemətlərimizi istifadə etməklə yanaşı, gələcək nəsillər üçün də qorunub saxlanması qayğısına da qalaq ki, kulinariyamızı özününküləşdirmək istəyən bədnam qonşularımıza da layiqli cavab vermiş olaq.

**Telli MƏMMƏDOVA**

## Üçüncü tur başa çatıb



Muxtar respublikada ilk dəfə təşkil olunan şahmat üzrə kişilər arasındakı Azərbaycan çempionatında ikinci tura yekun vurulub.

İlk turla müqayisədə bu tur zəka sahibləri arasındakı görüşlər tərəflərin qələbəsi ilə başa çatıb. Qrossmeyster Eltac Səfərli (2598) bu turu da heç-heçə başa vurub. O, qrossmeyster Fərid Abbasovla (2528) xalları yarı bölüb. Beynəlxalq usta Kənan Qarayev (2331) də ötən turda olduğu kimi, yenə də “sülh”ə razılaşıb. Bu dəfə o, təcrübəli Nicat Məmmədovla (2609) görüşdə buna müvəffəq olub. Eyni nəticə qrossmeyster Misrətdin İsgəndərovla (2535) qrossmeyster Vasif Durarbəylinin (2606) də oyununda qeydə alınıb.

Ardıcıl iki heç-heçədən sonra beynəlxalq usta Məhəmməd Muradlı (2449) bu turda qələbə sevinci yaşayıb. O, beynəlxalq usta Abdulla Qədimbəylini (2470) üstələməklə, buna nail olub. Qrossmeyster Vüqar Əsədli (2572) ilə beynəlxalq usta Aydın Süleymanlının (2520) görüşündə ağ-qara taxtanı hər iki tərəf yarı xalla tərk edib. Qrossmeyster Urfan Sevdimalıyev (2369) isə qrossmeyster Nicat Abasovla (2665) bacarmayıb və məğlub olub.

Üç turdan sonra 6 zəka sahibinin aktivində 2 xal var.

Qeyd edək ki, dairəvi sistem üzrə keçirilən çempionatda 12 zəka sahibi mübarizə aparır və çempionata mayın 18-də yekun vurulacaq.

Bu gün üçüncü turun görüşləri keçiriləcək. Bu turda azarkeşlər aşağıdakı görüşlərə şahidlik edəcəklər:

*Aydın Süleymanlı-Məhəmməd Muradlı*
*Vasif Durarbəyli-Abdulla Qədimbəyli*
*Eltac Səfərli-Misrətdin İsgəndərov*
*Nicat Məmmədov-Fərid Abbasov*
*Nicat Abasov-Kənan Qarayev*
*Vüqar Əsədli-Urfan Sevdimalıyev*

Görüşlər saat 14[00]-da başlayacaq.

**Ceyhun MƏMMƏDOV**

# Ətraf mühitin qorunması insan sağlamlığına xidmət edir

*Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə həyata keçirilən sosial-ekoloji siyasət uğurla davam etdirilir.*

Aprel ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə aparılması məqsədilə 12 yoxlama-reyd keçirilmiş, 2 inzibati xəta qeydə alınaraq qanunauyğun tədbir görülmüşdür. Muxtar respublikamızın təbiətinin qorunması üçün inzibati tədbirlərlə yanaşı, əhali arasında ekoloji-hüquqi maarifləndirmə tədbirləri də icra edilmişdir. Bu məqsədlə Ordubad rayonunun Nəsirvaz və Bist kənd sakinləri arasında keçirilən maarifləndirmə tədbirlərində ətraf mühitin mühafizəsi, brokonyerlik hallarına qarşı birgə mübarizə, yaşıllıqların artırılması, çay vadilərinin, suların qorunması və ailə təsərrüfatlarının inkişaf etdirilməsində yabanı meyvə, dərman bitkilərindən səmərəli istifadə yolları və torpaqların münbitliyinin qorunması haqqında müzakirələr aparılmışdır.

Ay ərzində mühüm ekoloji tədbirlərdən biri kimi monitorinqlərin aparılması diqqətdə saxlanılmış, bu məqsədlə Naxçıvan şəhəri, Babək, Şahbuz, Kəngərli, Sədərək, Culfa, Ordubad və Şərur rayonlarının 31 yaşayış məntəqəsində monitorinqlər keçirilmiş, çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər görülmüşdür.



Sədərək Rayon Su Monitorinq Laboratoriyasında aprel ayı ərzində Araz çayının muxtar respublika ərazisinə daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən “Şir arxı”ndan hər birindən 9, Arpaçayın muxtar respublika ərazisinə daxil olan hissəsindən isə 4 olmaqla, ümumilikdə, 22 su nümunəsi götürülmüş və 208 analiz aparılmışdır.

Muxtar respublikada ekoloji tarazlığın mühafizəsi sahəsində mühüm amil olan yaşıllıqların, meşələrin qorunması və artırılması diqqətdə saxlanılmış, təsdiq olunmuş sxem-plan əsasında kənd təsərrüfatı əkinləri üçün yararsız olan torpaq sahələrində şoranlaşmış və eroziyaya uğramış torpaqların müəyyənləşdirilərək əkin dövriyyəsinə qaytarılması üçün yeni meyvə bağlarının salınması, bərpa aparılması, eləcə də toxumla əkin işləri davam etdirilmişdir. Yaşıllaşdırma tədbirləri zamanı, ümumilikdə, 15,5 hektar sahədə meyvə bağı salınmış, 9050 müxtəlif meyvə, 800 püstə tingi ilə əkin keçirilmişdir. 3,0 hektar sahədə bərpa aparılmış, bu məqsədlə 1350 müxtəlif növ meyvə və meşə tinglərindən istifadə olunmuşdur. Ümumilikdə, 47,7 hektar sahədə isə toxumla əkin aparılmış, 500 kiloqram müxtəlif toxumlardan istifadə olunmuşdur. Eyni zamanda Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsindəki yaşıllıq zolaqlarında ziyanvericilərə qarşı mübarizə məqsədilə dərmanlama işləri həyata keçirilmişdir. Ərazilərdə cır meyvə ağaclarının məhsuldarlığının artırılması məqsədilə xüsusi mühafizə olunan təbiət əraziləri və meşə fondu sahələrində 573 müxtəlif meyvə ağaclarında alma, armud və alça şivləri ilə calaq işləri aparılmışdır. Ötən ay yeni toxmacarlıqlar yaradılmış, 2200 çınar, 120 ardıc, 950 üzüm, 60 heyva qələmi əkilmiş, ərazilərdə alaq otlarından təmizləmə və suvarma işləri davam etdirilmişdir. Həmçinin 3060 ərik, üzüm, badam və tut tinglərindən istifadə etməklə dibçəkdə ting yetişdirilmişdir.

22 aprel – Beynəlxalq Yer Kürəsi Günü ilə əlaqədar olaraq ekologiya könüllülərinin və digər gənclərin iştirakı ilə Heydər Əliyev Su Anbarının ətrafında “Gənclər ətraf mühitin çirklənməsinə yox deyir!” devizi altında təmizlik aksiyası keçirilmişdir. Gənclər, həmçinin “Könüllülər bağı”nda da aqrotexniki qulluq işləri aparmışlar. Eyni zamanda gənclərə ətraf mühitin mühafizəsinin əhəmiyyəti, bu sahədə həyata keçirilən tədbirlər haqqında ətraflı məlumat verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Bildiriş

Naxçıvan Dövlət Universiteti 2020-2021-ci tədris ilinin yaz imtahan sessiyası ilə əlaqədar qiyabiçi tələbələrin nəzərinə çatdırır:

1. Universitetin qiyabi şöbəsinin bütün ixtisaslarında (əlavə ali təhsil də daxil olmaqla) yaz imtahan sessiyası 1 iyun 2021-ci il tarixdən başlayır və 20 iş günü davam edir.
2. Bütün qiyabiçi tələbələrin sessiyada iştirakı zəruridir.

## *İtmişdir*

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 37-3, mənzil 67 ünvanında yaşamış Əliyev Əbülfət Ələşrəf oğlunun adına olan 9248 inventar nömrəli texniki pasport və 04/574 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Tumbul kənd sakini Nəsirov Çölü Vəli oğlunun adına olan JN-247A-A inventar nömrəli 10307028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 387